# Qəbələnin sosial-iqtisadi inkişafı möhkəm zəminə söykənir

## 2019-cu ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat

## MƏRUZƏSİ

***Qəbələnin gözəl təbiəti burada turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada müvafiq infrastruktur yaradılmasına, dünya standartlarına uyğun mehmanxanalar tikilməsinə, abad yollar salınmasına xüsusi diqqətlə yanaşılmalıdır.***

**İlham Əliyev.**

(Əvvəli 6-cı səhifədə).

rayonun tarixi-mədəni məkanları, sənaye müəssisələri, turizm, idman və sağlamlıq kompleksləri ilə yaxından tanış olmuşlar.

Eləcə də, UNESKO-nun Dünya İrs Komitəsinin Bakıda keçirilmiş 43-cü sessiyasının iştirakçıları Qəbələ Arxeoloji Mərkəzinə gəlmişlər.

Həmçinin rayon icra hakimiyyətini başçısı olaraq mən ötən il Moskva şəhərində keçirilən "10-cu Rusiya - Azərbaycan Regionlararası Forum"da, rayon icra hakimiyyəti başçısının müavini isə Fransanın Paris şəhərində keçirilən "Azərbaycan-Fransa regionlararası əməkdaşlığın inkişaf etdirilməsi üzrə İdarəetmə Komitəsinin ilk iclas"ında iştirak etmişik.

Bundan başqa iyunun 12-də Qəbələ şəhərində Azərbaycan, Türkiyə və Gürcüstanın müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilmişdir.

Hesabat dövrü ərzində Azərbaycanda 5-ci Beynəlxalq Yoqa Gününün qeyd olunması layihəsi çərçivəsində Hindistan Respublikasının Bakıdakı Səfirliyinin təşəbbüsü və Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhərimizdə Yoqa Günü, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini ekstremizm - ictimai və mənəvi dəyərlərə təhlükə mənbəyi kimi" mövzusunda seminar-müşavirə, AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun təşkilatçılığı ilə Azərbaycan Coğrafiya Cəmiyyətinin (ACC) 80 illik yubileyi və X qurultayı keçirilmişdir.

Geniş turizm infrastrukturuna malik olan Qəbələdə ötən il təqribən 2500 yerlik 16 turizm istirahət obyekti fəaliyyət göstərmişdir. Onların arasında 7 otel beşulduzludur. Hesabat dövründə müəssisələrdə 186 mindən artıq yerli və əcnəbi turistlərə xidmət göstərilmiş və təqribən bir o qədər də turist fərdi yaşayış evlərində qalmışdır.

Onu da qeyd etmək istəyirəm ki, İslam Əməkdaşlıq Təşkilatının turizm nazirlərinin Banqladeşin Dəkkə şəhərində keçirilmiş 10-cu konfransında Qəbələ şəhəri 2020-ci il üçün İslam Turizm Paytaxtı seçilmişdir. Bununla əlaqədar rayonumuzda bu il müxtəlif səpgili tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

**Hörmətli müşavirə iştirakçıları!**

Rayon mərkəzi xəstəxanasında 2019-cu il ərzində stasionar xəstələrin sayı 2450 nəfər, cərrahi əməliyyatların sayı 206 olmuşdur.

Ötən müddət ərzində ambulator müraciət edən xəstələrin sayı 132818 nəfər təşkil etmişdir.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan obliqat qruplardan il ərzində 5120 nəfər müayinəyə cəlb edilmişdir. Onların 2276 nəfəri təhsil, 527 nəfəri səhiyyə işçiləri, 2317 nəfəri isə digər sahələrdə çalışanlardır.



XI Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi.



Qəbələ rayonunda "Davamlı inkişafın iqtisadi-sosial hədəfləri" mövzusunda regional konfrans.

Hesabat dövrü ərzində müalicə diaqnostika mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 30334, EKQ müayinələrinin sayı 5215, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 1003 nəfər, stasionar şöbəyə daxil olan xəstələrin sayı 1051 nəfər, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 954, şüa diaqnostika şöbəsində USM müayinələrinin sayı 16943, kompüter tomoqrafik müayinələrin sayı 1704, rentgen müayinələrin sayı 23531, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 8740 olmuşdur. Kliniki laboratoriyada 12259 xəstədə 509149 müayinə aparılmışdır.

Ölkə başçısının tapşırığı əsasında respublikada 18 yaşından yuxarı olan əhalinin fevralın 12-dən mayın 12-dək dispanserizasiyası keçirilmiş və tərtib edilmiş qrafikə əsasən 65354 nəfər müayinələrə cəlb olunmuşdur. Müayinələrin nəticəsinə əsasən 3049 nəfərə ambulator, 325 nəfərə stasionar müalicə təyin olunmuş, 165 nəfər Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Rayon gigiyena və epidemiologiya mərkəzi tərəfindən ilin əvvəlindən yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar profilaktiki tədbirlərin həyata keçirilməsi məqsədi ilə ayrı-ayrı sahələr və yoluxucu xəstəliklər üzrə kompleks tədbirlər həyata keçirilmişdir.

Aparılmış profilaktik tədbirlərin nəticəsidir ki, son 10 il ərzində rayonda uşaqlar arasında difteriya, göy öskürək, tetanus, qızılça, parotit, məxmərək kimi idarə oluna bilən yoluxucu xəstəliklər qeydə alınmamışdır.

Şəhərin mərkəzləşdirilmiş su kəməri sisteminə daxil olan içməli su mənbələrindən, su anbarlarından, stasionar nöqtələrdən 16 su nümunəsi götürülərək Respublika GEM-nin, 32 su nümunəsi isə Şəki rayon GEM-nin laboratoriyalarına sanitar kimyəvi və bakteroloji müayinə üçün göndərilmişdir.

Tərtib olunmuş qrafikə əsasən may ayından başlayaraq rayon su kanal idarəsi üzrə mövcud su anbarlarının yuyulub dezinfeksiya olunması işi başa çatdıqdan sonra anbarlardan su nümunəsi götürülərək sanitar kimyəvi və bakterioloji müayinə üçün Respublika GEM-nin müvafiq laboratoriyalarına göndərilmişdir.

Rayon gənclər və idman idarəsi tərəfindən 2019-cu il ərzində 64 tədbir həyata keçirilmişdir. Bunlardan 30 tədbir gənclərlə iş, 34 tədbir isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edir.

Həyata keçirilən tədbirlərin mahiyyət baxımından əhəmiyyəti dövlət siyasətinin düzgün təbliğinin təşkili, vətənpərvərlik tərbiyəsi işinin inkişaf etdirilməsi, gənclərin asudə vaxtlarının səmərəli təşkili, istedadlı gənclərin üzə çıxarılması, bədən tərbiyəsi və idman sahəsində isə yeniyetmə və gənc idmançıların aşkar olunması, idmanın kütləviliyinin təmin

(Ardı 8-ci səhifədə).